# BİR ŞEİRİN TARİXÇƏSİ VƏ S.

**(əvvəli ötən sayımızda)**

**Böyük şair də bu şeirin yaranma tarixçəsini izah edərək yazır:**

**-Bununla 17 dekabrda baş vermiş Alma-Ata hadisələrini qələmə almaq üçün ayağım altına qoyacağım dayağı tapdım. Həmin axşam "17 dekabr" adlı şeir yarandı.**

Şeir belə başlayır.

***ON YEDDİ DEKABR***

**Dostum Ş.Hüseynova**
**On yeddi dekabr...Sənin ad günün,**
**Hərənin bəxtinə bir ulduz düşür.**
**Həm də tapmacadır yolu hər ömrün,**
**Sönmüş bir ocağa birdən köz düşür.**

**Sabahı bu gündən görmək çox çətin,**
**Yatır kül altında bir od külçəsi.**
**Birinci pilləni atan nə bilsin**
**İkinci pillənin nədir müjdəsi.**

Birinci bəndin birinci beyti əziz bir insanın doğum gününə (ad gününə) dost sözü kimi başlasa da, müəllif elə oxucusunu, birinci misradaca düşünməyə səfərbər olmasını istəyir. Yəni on yeddi dekabrdan sonra qoyulmuş üç nöqtə işıqfordakı qırmızı işığın funksiyasını öz üzərinə götürür və nöqtələrin yerinə yazılası olan və yazılmayan tarixi və ya sözü düşünməyə səsləyir. İkinci misrada isə nostalji hisslər aşılayır, bütün ömürlərin tapmaca olduğunu (ağacın, yarpağın, insanın ömrü olduğu kimi, bir iqtisadi formasiyanın, cəmiyyətin və ya imperiyaların da ömrü var və sona yetir) söyləyir, sönmüş ocaqların da birdən közərməsini dilə gətirərək, oxucunu xəbərdar edir, kül altındakı od külçəsi birdən alova da çevrilə bilər.

Böyük sənətkar üçüncü bənddə Şirməmməd müəllimə "qardaş" deyib xitab edərək "yatmış beyinlərə laylay çalaraq",-onlara əlavə qıcıq vermədən addım-addım (şeirində misra-misra) mətləbə yaxınlaşır.

**Birinci pillədə görmüşdünmü sən**
**Bu gün yetişdiyin mənzili, qardaş?**
**Gəl, gəl, alqışlayaq biz əvvəlcədən**
**Üzümüzə gələn hər ili, qardaş.**
**İllər yaxşı gəlir biri-birindən**
**Küllər çözələnir od hənirindən.**

İllərin bir-birindən yaxşı gəldiyini, onun hənirindən küllərin çözələndiyini (Alma-Atadakı baş meydana qazax gənclərinin axışında, onların qanının axıdılmasında) milli dərkin oyanışını görən şair, yetişdikləri mənzil başında gələcək hər ili əvvəlcədən alqışlamağa çağırır. Eyni zamada həm özlərinin, həm də dərddaşlarının bir çox mətləblərdən hali olmadıqlarını deyir:

**Biz hardan biləydik iyirmi yaşında**
**Ömrün hələ altmış düşərgəsi var.**
**İndi də nə bilək elçi daşında**
**Oturan elçinin nə müjdəsi var.**

**Gah olur, həsrətlə umduğumuzun**
**Görürük həyatda tərsini, qardaş,**
**Gah da gözümüzə ələnən tozun**
**Zaman özü verir dərsini, qardaş.**

**Bəzən yolda qalır gözlədiyimiz,**
**Gözlənməyən yerdən bəzən köz çıxır.**
**Bəzən qazananda uduzuruq biz,**
**Bəzən şərimizdən xeyrimiz çıxır.**

Azadlığı kim istəmir ki! Ancaq xalqlar həbsxanasına çevrilən sovet imperiyası öz tərkibinə qatdığı xalqları nəinki kölə vəziyyətinə saldı, hətta onları cismani məhv etməkdən də çəkinmədi. 1990-cı ilin 20 Yanvar Bakı qırğını bu imperiyanın canavar xislətinə faciəli, ürəkləri dağlayan bir nümunə ola bilər.

Qazax xalqının üzüyola, dönməz bir xalq olduğunu zənn edən imperiya tərkibinə qatdığı xalqlarla necə istəsə rəftar edə bilər düşüncəsinə öz azadlıq hayqırtıları ilə nöqtə qoydu. Ulu şair də azadlıq və məslək etiqadına sığınaraq yazır ki, bəzən gözləntilərimiz yolda qalsa da, gözlənməyən yerdən köz çıxır. Şərin ağırlığı da heç kəsdə sübhə yaratmır. Ancaq bəzən şərdən də xeyir çıxır.

Şəkidə belə bir deyim var, şər iş düşəndə deyərlər: "Sayası düşsün!"

**Lal axan çayların altında yerdən**
**Qaynayan suları görmürük, fəqət.**
**Qırır qolundakı zanciri birdən**
**Yatmış bildiyimiz bir kölə millət.**

**Vaxtın axarında sular durulur,**
**Gerçək gül açanda solur riyalar.**
**Bir anın içində uçub məhv olur,**
**Yüzillik, minillik imperiyalar.**

Bəxtiyar Vahabzadənin qanını və canını risqə ataraq böyük uzaqgörənliklə söylədikləri çox keçmədi ki, öz təsdiqinə qovuşdu. Yəni vaxtın axarında sular durulmağa başlayanda gerçəklər də gül açdı, riyalar saralıb soldu-nəhayətdə 70 illik bir imperiya "yüz illik, min illik imperiyalar" kimi uçub dağılmaqla, məhvə məhkum oldu. "Yatmış bildiyimiz bir kölə millət"in oyanışı ilə qollardakı zəncirlər qırıldı və bununla da sovet imperiyasının çöküşü başlandı.



**Bu gün dağlardakı dumanın, çənin,**
**Sabah gül açması bir himə bənddir.**
**Bu gün təşəxxüslə "mən", "mən" deyənin**
**Sabahkı taleyi kimə bəllidir?**

**Birinci pillədə görmüşdünmü sən**
**Bu gün yetişdiyin pilləni, qardaş?**
**Təbrik eyləyirəm elə indidən**
**Sabahkı gün ilə mən səni, qardaş!**

Bəxtiyar Vahabzadə azadlığın, istiqlalın gələcəyi anonsunu verməklə, Şirməmməd müəllimə "qardaş, qardaş" deyə xitab etməklə, "sənin ad günün" söyləməklə qazdan ayıq olan imperiya nökərlərini aldadaraq "sabahkı gün ilə"-yəni azad günlərin, azadlıq və müstəqilliyin gələcəyi gün münasibətilə həm dostunu, həm də xalqları (azadlıq uğrunda canlarını belə əsirgəməyənləri) təbrik edir. Budur bu şeiri dəridən-qabıqdan çıxaraq ciddi-cəhdlə əqidə və məslək qardaşına yazdıran Şirməmməd Hüseynovun uzaqgörənliyi, Bəxtiyar Vahabzadənin böyüklüyü, yenilməzliyi və bənzərsizliyi!

1986-cı ildə hələ SSRİ-nin bütün gücü ilə çalıb-çapdığı, sorgusuz-sualsız işgəncə və yerindəcə məhvetmə maşınının tam xodu ilə işlədiyi bir dönəmdə onun dağılacağını düşünmək, xəyaldan keçirmək belə mümkünsüz olduğu qədər də xülya idi.

Bəxtiyar müəllim isə buna özü inanmaqla, özgələri də inandırır, "bir gün dağlardakı dumanın, çənin, sabah gül açması bir himə bənddir" söyləyir, bu təbiət hadisəsini cəmiyyətlərin üzərinə köçürür.

Üç gün sonra "Kommunist" qəzetində çap olunan bu şeiri oxuyan bir neçə həmfikri, o cümlədən yaxın dostları Nurəddin Rzayev və Xudu Məmmədov gülə-gülə böyük şairdən soruşmuşlar:

"Şirməmməd müəllim doğurdan da 17 dekabrda anadan olub, yoxsa bu da sənin növbəti qalxanındır?" (B.Vahabzadə "İstiqlal", 1999, səh. 68-70)

Doğurdan da 17 dekabr Şirməmməd Hüseynovun doğum günüdür. Bu da 1986-cı ilin 17 dekabrında baş vermiş Alma-Ata hadisələrini qələmə almaq üçün böyük şairin söykəndiyi bəhanə olmuşdur.

Böyük Qazax şairi Oljas Süleymenov B.Vahabzadənin "17 dekabr" şeiri və Azərbaycan ziyalılarının qardaş qazax xalqı ilə həmrəyliyini alqışlayan xüsusi təşəkkür məktubu göndərmişdi. Məktubda deyilir: "Əziz müəllim! Qəzet vasitəsilə sizin məktubunuzu, uzaqgörən şeirinizi və Şirməmməd müəllimin ürəkdən gələn şərhini alıb oxuyanda çox sevindim. Bütün bunlar mənə 87-ci ilin noyabrındakı görüşümüzü xatırlatdı:

**"Bir anın içində uçub məhv olur**
**Yüzillik, minillik imperiyalar".**

Bu misralarınızı dəfələrlə təkrar oxudum. Qazax gənclərinin 1986-cı ildəki məğzi etibarilə SSRİ-də ilk demokratik aksiya olan dekabr etirazlarının əhəmiyyətini Sovet İttifaqında heç bir şair belə ucadan və aydınlıqla deməmişdi.

O vaxtdan çox sular axıb. Amma tarixi hadisələrin coşğun axarında belə alnında "birincilik" nişanəsi olanlar itib-batmır. Belə hadisələrə 86-cı ilin dekabr Alma-Atası kimi, 90-cı il Bakının yanvarı da aiddir.

Ümid edirəm ki, zamanın bu axarında sevincli, zəfərli günlər də qabarıq görünəcək.

Bir daha sizi, yaxınlarınızı, Şirməmməd müəllimi bərk-bərk bağrıma basıram.

Oljas Süleymenov, İtaliya, Roma, may 1999-cu il".

İndi dekabr hadisələrindən 33 il keçir. Qazax xalqı kimi Azərbaycan xalqı da istiqlalına qovuşmuş, müstəqillik həyatını yaşatmaqda, tarixi inkişafdadır.

Bir şeirin tarixçəsi haqqında söhbətimizə buradaca nöqtə qoymaq olardı. Ancaq söz-sənət adamlarının, şairlərimizin Şirməmməd Hüseynov şəxsiyyətinə olan sevgi, diqqət və marağını nəzərə alaraq, bir-iki məsələni də diqqətcil oxucuların nəzərinə çatdırmağı lazım bildim.

Əslən Ağdamın Sarıhacılı kəndindən olan, daha çox şair, publisist kimi tanınan Famil Mehdi Şirməmməd Hüseynovun yüksək dəyər verdiyi tələbələrindən olub, onun təklifi ilə universitetdə saxlanılıb. Şirməmməd müəllimin diqqət və qayğısı nəticəsində elmlər doktoru, professor elmi dərəcələrinə yiyələnib. Sonralar isə bu müəllim - tələbə münasibətləri əqidə və məslək dostluğuna çevrilib.

Şirməmməd Hüseynov "Sıralarımızdan bir alim, bir sənət fədaisi də getdi" sərlövhəli məqaləsində ("Günay" qəzeti, 4 noyabr, 2003) istəkli, istedadlı tələbəsi Famil Mehdini xatırlayaraq yazırdı: "Mən isə ən istəkli, ən istedadlı əqidə və məslək dostumu itirdim. F.Mehdini mən keçən əsrin 50-ci illərində tələbə ikən tanıdım. Həm də təkcə auditoriyada deyil, məcburi göndərdiyimiz pambıq yığımı zamanı tanıdım. Sadə, əməksevər, elmə, biliyə, öyrənməyə can atan, ləyaqət və mənliyini saxlamağı bacaran, sözündə və əməlində bütöv, ən əsası isə vətənini, millətini sonsuz məhəbbətlə sevən, onun yolunda hər cür fədakarlığa hazır olan bir gənc fədai kimi tanıdım, sevdim. Həm də 50 illik bir müddət ərzində onu bu müqəddəs yoldan, amaldan bir an belə sapınan görmədim".

Tanıdığım və bildiyim qədərincə Şirməmməd müəllim heç vaxt kimsəə xoş gəlmək üçün havayı söz deməyib. Famil Mehdi haqqında da həmçinin. Bunu tək bircə fakt da təsdiq edir. Famil Mehdi "Qurtar" adlı şeirində tanrı dərgahına üz tutaraq dilədiklərini əqidə və məsləkdaşı, sevimli müəllimi, "polad kimi sınmayan" insan Şirməmməd Hüseynovdan istəyir. Bu şeiri oxuyanda Şirməmməd müəllimin Famil Mehdiyə, onun bədii yaradıcılığına və əzmkar fəaliyyətinə təsir etdiyini duymamaq mümkün deyil. Bütün bunları da nəzərə alaraq "Yeni Müsavat" qəzetinin 17 fevral 2002-ci il tarixli 95 saylı nömrəsində dərc olunmuş həmin şeiri də oxucuların diqqətinə təqdim edirəm.

Şirməmməd müəllim demiş:"Maraqlananlar üçün faydasız olmaz".

**(ardı 8-ci səhifədə)**

# BİR ŞEİRİN TARİXÇƏSİ VƏ S.

(əvvəli 7-ci səhifədə)

## *QURTAR*

***Müəllimim, məslək və əqidə dostum professor Şirməmməd Hüseynova***

**Tanrım, qurtar bizi, bu dərddən qurtar,
Dərdə dərd calayan namərddən qurtar.
Qurtar quzuları qurdun əlindən,
Qurtar doğmaları yadın əlindən,
Qoyma şahmar ilan çala ceyranı,
Namərd körpüsündən keçəni qurtar.
Aslan pəncəsindən bala ceyranı,
Quzğun caynağından cücəni qurtar.
Qurtar ki, qəssablar cərrahlaşmasın,
Cərrahlar çaşmasın cəlladlaşmasın.
Bu dünya şahiddir əzəldən bəri,
Dəryalar söndürmür ürək bişəndə.
Başlayır zamanın qara günləri,
Adilər seçilib dahiləşəndə,
Dahilər kiçilib adiləşəndə.
İblis meydan açır mələk donunda
Qış yazı bəyənmir, yer göyü saymır.
Dil ağızda yatmır, qılınc qınında,
Dar gözün, kor gözün gözləri doymur.
Nə sirr yox bir ömrün macərasında.
Hara ayaq bassa, orda dərd bitir,
Zalımçün cinayət məcəlləsində
Yalnız bir maddə var-əlli yeddidir.
Qurtar insanları bələlərindən,
Qurtar öz nəfsinin kölələrindən.
Daş yağdır göylərdən qafatasına,
Əlilə açdığı bazar dağılmır.
Oğul gələ bilmir ata yasına,
Qızın göz yaşları məzara yağmır.
Pələng də əriyər dar bir qəfəsdə,
Yarsan ürəyində qoşa dağ olar.
Qılınclar altında mərmilər üstdə,
Nə qədər, nə qədər yaşamaq olar?!
Yox özgə güvəncim, arxam, dayağım,
Şəhər- dilim-dilim, kənd- bölük-bölük.
Yüz yerə, min yerə bölünən xalqın,
Qorxusu içində özündən böyük.
Tanrım, qurtar bizi, bu dərddən qurtar,
Dərdə dərd calayan namərddən qurtar.
Sənsən, yeri-göyü sənsən yaradan,
Qoru bəxtimizi, taleyimizi.
Bizi qurtarmasan sən bu bəladan,
Yeyib qurtararıq bir-birimizi.**

**2000-2001**
**Famil Mehdi, "Yeni Müsavat" qəzeti, 17 fevral 2002**

Məncə, Şirməmməd müəllimdən dərs alan tələbəyə cəsarət də, ləyaqət də, sevgi də yaraşır, sevilmək də, unudulmamaq da... Bir də ona görə ki, onlar Şirməmməd Hüseynovun "Şinelin"dən çıxıblar. Şirməmməd müəllim yuxarıda adını çəkdiyim məqaləsini belə tamamlayır:

"Famil Qarabağ həsrətilə dünyadan köçdü. Qarabağ harayı onun varlığına hakim kəsilmişdi. Famili düşünərkən vaxtilə Əhməd bəy Ağayevin milli müqəddəslərimizdən Həsən bəy Zərdabinin dəfn mərasimində dediyi sözlər yadıma düşür: "Dünyadan cümləmiz böyləcə gedəcəyiz! Heç bir şeyi aparmayacağız! Bizdən qalan fəqət o insanlıq, o öz millətimizə, öz taifəmizə və ümuminsaniyyət qulluq və xidmət qalacaq ki, əlan Həsən bəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor".

Millət fədaisi Famil Mehdi! Sənin ruhun bizim üçün həmişə əziz və möhtərəm olacaq".

**"Günay" qəzeti, 40, 4/X.2003**

Şirməmməd müəllim haqqında yazan hər bir qələm sahibi nə qədər bədii təsvir və ifadə vasitələri işlətsələr də yenə də nə isə yaddan çıxıb qalmış olur. Onun müəllimliyi də, publisistikası da, mətnşünaslığı da, tədqiqatçı alim axtarışları da, əvəzsiz sələflərə xələfliyi də, vətən, millət, xalq sevgisi də,... bir böyük VƏTƏNDAŞ sözünə sığsa da onun ömrü, fasiləsiz və çox səmərəli 75 illik fəaliyyəti məqalələr toplusuna, cild-cild kitablara sığan deyil. Bu söz adamı özü sözə sığır, ancaq söz onu özündə olduğu və göründüyü kimi aça bilmir və s.

Fikrimi həssas duyğular şairi Dəmir Gədəbəylinin bir şeiri ilə bitirirəm.

## *ALİMLƏR USTADI*

***(85 yaşlı ustad Şirməmməd müəllimə)***

**Halaldan halalsan, təmizdən təmiz,
Bəllidir, milyonlar, yüzlər içində.
Vətənə, millətə eşqin bir dəniz,
Sözün də ucadır sözlər içində.**

**Mənim alim dostum, ustad qardaşım,
Mənalı, şərəfli bir yol keçmisən.
Yenilməz məsləkli könül sirdaşım,
Dəhşət dövranlarında düzlük seçmisən.**

**Xoşbəxt bağbanısan söz aləminin,
Kim deyir gülündən dərən olmayıb.
Düzlük ahəngindən öz aləminin,
Bir yol döndüyünü görən olmayıb.**

**Müdrik babaların yadigarısan,
Sənət çırağını gur yandırmısan.
Tarixi düz yazmaq deyildir asan,
Yazıb çoxlarını utandırmısan.**

**Qadir qələmində möcüzələr var,
Xalqına bağlısan cavanlığından.
Sənin zəhmətinlə neçə sənətkar,
Çıxıb arxivlərin qaranlığından.**

**Bu gün ad günündür, sevinir dostlar,
Alim ustadısan, el ağsaqqalı.
Vallah gözəl deyib şair Bəxtiyar,
Hədər ağartmadın, dostum saqqalı!.**

**Büllur məsləkinə heyran olduğum,
Vurgunam səndəki əzmə, cürətə.
Şərəfli ömründən ibrət aldığım,
Çoxdan qovuşmusan əbədiyyətə!**

**16.12.2009. Bakı**

Səmimi şeirdir, on il bundan əvvəl yazılıb. Şirməmməd müəllimin xarakterini, onun portretini yaradır. Söz təfəkkür işığında Şirməmməd Hüseynov ucalığını sərgiləməyə ciddi-cəhdlə səy edir.

**Ramiz Orsər**